

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (23.771)

*17 iyul 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi təchizatının daha da yaxşılaşdırılması məqsədilə Araz çayı üzərində gücü 36 MVt olan Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi çərçivəsində tənzimləyici beton bəndin tikintisinin başa çatdırılması məqsədilə **qərara alıram:**

1. Gücü 36 MVt olan Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan əlavə olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 iyul 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunub

İyulun 16-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Rəssamlar Birliyinin 50 illik yubileyini muxtar respublikanın ictimai-mədəni həyatında əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə rəssamları, sənətsevərləri və ictimaiyyət nümayəndələrini təbrik edərək demişdir: Naxçıvan rəssamlıq məktəbinin qədim və zəngin tarixi vardır. Bu məktəbin görkəmli nümayəndələri təsviri sənətin müxtəlif janrlarında tariximizi, abidələrimizi, milli-mənəvi dəyərlərimizi, təbiətimizi, xalqımızın həyatını əks etdirməklə böyük mədəniyyət salnaməsi yaratmışlar. Azərbaycan realist rəssamlığının əsasını qoymuş Bəhruz Kəngərlinin, teatr rəssamlığının inkişafında mühüm xidmətləri olan Şamil Qazıyevin və digər rəssamların əsərləri Naxçıvanın dünəni ilə bu günü arasında mədəni bağlardır.



Ali Məclisin Sədri demişdir: Mədəniyyətin və incəsənətin inkişafını daim diqqət mərkəzində saxlayan, ***“Azərbaycan rəssamlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı, 2000-ci ildə isə həmin təşkilatın bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Ötən dövrdə Naxçıvan rəssamlıq sənəti böyük inkişaf yolu keçmişdir. Müstəqillik illərində Rəssamlar Birliyi üçün yeni bina, sərgi salonu və emalatxana istifadəyə verilmişdir. Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi və Rəssamlar Parkı yaradılmış, Bəhruz Kəngərlinin 120, Şamil Qazıyevin 110, İbrahim Səfiyevin 120 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.



“Bu gün Naxçıvan rəssamlıq sənəti varislik ənənələri əsasında inkişaf etdirilir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq, Naxçıvan Müəllimlər İnstitutunda isə Təsviri incəsənət müəllimliyi ixtisasları açılmışdır. Hazırda həmin ixtisaslar üzrə, ümumilikdə, 226 tələbə təhsil alır. Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin, incəsənət və bədii sənətkarlıq məktəblərinin rəsm dərnəklərində 600-ə yaxın uşaq və gənc rəsm sənətinin sirlərini öyrənir. Eyni zamanda Naxçıvan Dövlət Rəsm Qalereyasında dəyərli rəsm əsərləri mühafizə, təbliğ və nümayiş olunur. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən Naxçıvan rəssamlıq məktəbinin tarixi ilə bağlı elmi tədqiqatlar aparılır. Bir sözlə, 59 üzvü olan Rəssamlar Birliyi hərtərəfli qayğı ilə əhatə olunub, rəssamların yaradıcılıq imkanları xeyli genişləndirilib. Ötən 10 ildə ölkədaxili və beynəlxalq səviyyəli 400-ə yaxın sərgidə naxçıvanlı rəssamların 8 mindən artıq əsəri nümayiş etdirilib, 5 dəfə “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalı keçirilib, albom-kataloqlar nəşr olunub. Muxtar respublika rəssamlarının əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Birlik üzvlərindən 1-i Azərbaycan Respublikasının Xalq rəssamı, 5-i Azərbaycan Respublikasının, 9-u Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, 1-i isə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülüb, rəssamlar Prezident mükafatı, medal və nişanlarla təltif edilib.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkənin tarixi və mədəniyyəti yalnız kitablarda deyil, həm də rəsm əsərlərində yaşayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Rəssamın həm həyatı, həm də yaradıcılığı, əsərləri, mədəni və mənəvi irsi xalqımızın bu günü və gələcəyi üçün mənəviyyat mənbəyidir”.*** Naxçıvanın zəngin təbiəti, qədim tarixi və müasir inkişafı rəssamlar üçün geniş yaradıcılıq imkanları açır. Ona görə də tariximizin və milli dəyərlərimizin təbliği, gənclərin vətənpərvərlik tərbiyəsi və günümüzün real mənzərəsinin yaradılması rəssamların yaradıcılığında xüsusi yer tutmalıdır.

Ali Məclisin Sədri bu yolda birlik üzvlərinə uğurlar arzulamış, yubiley münasibətilə bir daha təbrik etmişdir.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, qədim və zəngin tarixə malik olan Naxçıvan rəssamlıq sənəti Ali Məclis Sədrinin diqqət və qayğısı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, yeni bina istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun aid ixtisasları hamiliyə götürülmüş və gənc rəssamlarla mütəmadi olaraq görüş, tədbir və sərgilər keçirilmişdir. Ötən il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin nəzdində Gənc Rəssamlar Bölməsi yaradılmışdır. Hazırda bölmənin 25 üzvü var. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il martın 2-də Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi barədə Sərəncam imzalamış, Tədbirlər Planı təsdiq olunmuşdur. 50 illik yubiley tədbirləri çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində “Naxçıvan rəssamlıq sənətinin inkişafı” mövzusunda konfrans keçirilmiş, muxtar respublika rəssamlarının əsərlərindən ibarət 2 sərgi açılmış, ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalı təşkil olunmuş, 66 rəssamın 71 əsərinin yer aldığı albom-kataloq nəşr edilmişdir. Hazırda Naxçıvan rəssamlıq məktəbinin tanınmış nümayəndələri haqqında ensiklopedik nəşrin hazırlanması istiqamətində işlər davam etdirilir. Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin göstərilən qayğıdan bəhrələnərək fəaliyyətini daha da gücləndirəcəyini bildirmişdir.

Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisasının III kurs tələbəsi, gənc rəssam Türkan Əsədova çıxış edərək demişdir: “Muxtar respublikada gənclərin təhsil alması, istedadlarının üzə çıxarılması və sağlam vətəndaş kimi böyüməsi üçün lazımi şərait yaradılmışdır. Mən də bu imkanlardan bəhrələnən gənclərdənəm. Rəssamlıq sənətinə böyük marağım var. Dövlətimiz tərəfindən göstərilən qayğı biz gənc rəssamlar üçün də geniş imkanlar açmışdır. 2016-2019-cu illərdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyinin üzvü olmuşam. 2019-cu ildə Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisasına qəbul olmuşam. Hazırda həmin ixtisasın III kurs tələbəsiyəm. Müxtəlif mövzularda çəkdiyim 40-a yaxın rəsm əsərim muxtar respublikada keçirilən sərgilərdə nümayiş olunmuşdur. 2020-ci ilin sentyabr ayından Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Gənc Rəssamlar Bölməsinin üzvüyəm. Təhsil aldığım ixtisasın Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən hamiliyə götürülməsi, gənc rəssamlarla mütəmadi olaraq görüş, tədbir və sərgilərin keçirilməsi peşəkarlığımızın artırılmasına mühüm töhfə verir”.

Türkan Əsədova Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Gənc Rəssamlar Bölməsinin üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

*Ardı 2-ci səhifədə*



Sonra Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında rəssamlıq sənətinin inkişafı sahəsində səmərəli fəaliyyətlərinə görə Əzimbəyova Leyla Behruz qızına, Qədimov Rafael Sabir oğluna və Məmmədov Sabir Duman oğluna Naxçıvan Muxtar Respublikasının "Əməkdar rəssamı" fəxri adı verilmişdir.

Ali Məclisin Sədri fəxri adların döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Rəssamlar əməklərinə verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Ali Məclisin Sədri və tədbir iştirakçıları Rəssamlar Birliyinin 50 illik yubiley sərgisinə baxmışlar.

Məlumat verilmişdir ki, sərgidə ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalının albom-kataloqu və 53 rəssamın 130 əsəri nümayiş etdirilir. Sərgidə rəssamların portret, peyzaj, kompozisiya və natürmort janrlarında çəkdikləri əsərlər, dəri üzərində yandırmalar, dekorativ-tətbiqi sənət nümunələri dərin məzmunu və yaradıcılıq xüsusiyyətləri ilə seçilir. Naxçıvanın zəngin təbiəti, qədim abidələri və müasir inkişafı rəssamlar tərəfindən peşəkarlıqla yaradılmışdır.

Sərgiyə baxış zamanı Ali Məclisin Sədri rəsm dərnəklərinin fəaliyyətinin gücləndirilməsi və varisliyin təmin olunması, hədiyyəlik rəsm və əl işlərinin hazırlanması barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri rəssamlarla xatirə şəkli çəkdirmiş, onlara fəaliyyətlərində bir daha uğurlar arzulayaraq demişdir: Muxtar respublikada rəssamlıq sənəti böyük inkişaf yolu keçmişdir. Bu gün burada iştirak edən rəssamlar Naxçıvan rəssamlıq məktəbinin davamçılarıdır. 60-a yaxın birlik üzvünün olması inkişafın göstəricisidir. Naxçıvan həm təbiəti, həm tarixi, həm də müasir inkişafı ilə rəssamlar üçün geniş mövzudur. Realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərlinin həyat və fəaliyyətilə tanış olarkən onun bu sənəti necə çətinliklə yaşatdığının şahidi oluruq. Onun rəsmləri Azərbaycan Milli İncəsənət Muzeyində və Naxçıvanda adını daşıyan muzeydə sənət əsərləri kimi qorunub saxlanılır. Bu gün Naxçıvan Muxtar Respublikasında rəssamlar üçün hərtərəfli şərait yaradılmışdır. 50 illik yubileyin qeyd edilməsi də rəssamlıq sənətinə göstərilən dövlət qayğısıdır. Sərgidə müxtəlif janrlarda və realist üslubda çəkilmiş, eləcə də beynəlxalq sərgilərdə nümayiş oluna biləcək əsərlər nümayiş olunur. Bu da Bəhruz Kəngərli məktəbinin davam etdirildiyini göstərir. Rəssamlıq sənəti bundan sonra da inkişaf etdirilməli, yaşadılmalı, Naxçıvan bu əsərlər vasitəsilə dünyaya tanıdılmalıdır. Çünki incəsənət məxsus olduğu yerin mədəniyyətinin göstəricisidir.

Ülviyyə Həmzəyeva rəssamların daim dövlət qayğısını üzərlərində hiss etdiklərini bildirmiş, birlik üzvləri adından minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasından irəli gələn vəzifələr və 2021-ci ilin I yarım ilinə həsr olunmuş iclası keçirilib.***

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasını qeyd edərək məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa rəhbərliyi altında muxtar respublikamızda hüquq institutlarının təkmilləşdirilməsi və ədalət mühakiməsinin keyfiyyətinin daha da artırılması istiqamətində genişmiqyaslı işlər görülüb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hüquqi-maarifləndirmə sahəsində də bir sıra işlər görmüş, cari ilin müvafiq dövründə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılmasını diqqət mərkəzində saxlayıb.

Ali Məhkəmənin sədri muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki və digər işlər üzrə çıxarılmış qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətlərinin nəticələrini təhlil edib.

İclasda Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədov, Hərbi Məhkəmənin sədri Polad Həsənov, Kommersiya Məhkəməsinin sədri Elşən Salmanov və muxtar respublikanın şəhər və rayon məhkəmə sədrlərinin 2021-ci ilin birinci yarısında görülən işlərə dair məlumatları dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasını nazir Vüsal Sevdimaliyev açaraq bildirib ki, cari ildə Şərur və Ordubad rayonlarının kəndlərində yeni Rabitə evləri, habelə Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilib. Naxçıvan şəhərində yeni inşa olunan Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına və Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə rabitə xətləri çəkilib, həmçinin inşası davam etdirilən kənd mərkəzlərinə rabitə xətlərinin çəkilməsi üçün zəruri tədbirlər həyata keçirilib. Dəmirçi kəndində 544 montaj tutumlu, 444 sabit şəbəkə telefon istifadəçisi və 253 internet istifadəçisi olan NGN Avtomat telefon stansiyası Sədərək Rayon Rabitə İdarəsinin balansına verilib, bununla bağlı zəruri dəyişikliklər həyata keçirilib.

Muxtar respublikanın stasionar telefon şəbəkəsinin tamamilə Yeni Nəsil (NGN) Telekommunikasiya sisteminə keçirilməsi, habelə "Naxtel" mobil rabitə şəbəkəsinin abunəçi tutumunun artırılması üçün yeni baza stansiyalarının istifadəyə verilməsi istiqamətində işlər davam etdirilib. Həyata keçirilən tədbirlər 4-cü nəsil "Naxtel" abunəçilərinin sayının artmasına da səbəb olub.

Qeyd olunub ki, hesabat dövründə muxtar respublika ərazisində fiber-optik kabel şəbəkəsinin genişləndirilməsi işinin davam etdirilməsi məqsədilə "Evədək optika" layihəsi uğurla icra edilib. 2021-ci ilin birinci yarısında muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılıb, ümumilikdə, 1204 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilib, 4044 abonent internetlə təmin olunub.

Həmçinin telekommunikasiya şəbəkəsinin inkişafına dair layihələr icra olunub, şəhər, rayon mərkəzlərində və kəndlərdə fəaliyyət göstərən avtomat telefon stansiyalarına, ümumilikdə, 182 ədəd 32, 48 və 64 yerlik internet plataları əlavə edilib ki, nəticə etibarilə, muxtar respublika üzrə 6000-ə yaxın internet istifadəçisinin tələbatının ödənilməsinə imkan yaranıb. Hesabat dövrü ərzində 107 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq təqdim edilib.

Nazirlik tərəfindən qeyd olunan dövrdə kadr hazırlığı da diqqət mərkəzində saxlanılıb, kurslarda uğurlu nəticə əldə etmiş nazirliyin 4 əməkdaşı "CISCO" şəbəkə inzibatçılığı üzrə, 2 əməkdaşı analoq və rəqəmli elektronika üzrə sertifikat ilə təmin edilib.

İclas məruzə ətrafında çıxışlarla başa çatıb.

* * *



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi Müslüm Cabbarzadə geniş məruzə ilə çıxış edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış qərar, fərman və sərəncamlarda qarşıya qoyulmuş tapşırıqlar və qəbul edilmiş Dövlət proqramlarında daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələr uğurla icra edilib. 67 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Qeyd olunub ki, Şərur və Kəngərli rayonlarının kəndlərində torpaqlardan istifadə vəziyyətinə dair monitorinqlər aparılıb, torpaqların qanunsuz istifadəsinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb. Şahbuz rayonu üzrə bütün bələdiyyələrin xəritələri və yerquruluşu sənədləri qovluğu hazırlanaraq aidiyyəti üzrə göndərilib. 21 sifarişçi təşkilatın müraciəti əsasında 140-a yaxın müxtəlif miqyaslı xəritə, plan və sxem hazırlanıb.

Diqqətə çatdırılıb ki, 2021-ci ilin 6 ayı ərzində muxtar respublika üzrə 3446 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazırlanan mülkiyyət sənədlərinin sayı 23,6 faiz artıb. Yeni yaranmış 178 daşınmaz əmlak obyektinə ünvan verilib, 2690 texniki sənəd hazırlanıb, 562 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 46 yaşayış məntəqəsində 169 vətəndaşın müraciətinə baxılıb, 560 vətəndaşa elektron xidmətlər göstərilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilən kollegiya iclasını nazir Rafael Əliyev açaraq bildirib ki, 2021-ci ilin birinci yarım ilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 62 milyon 916 min 100 manat təyinata qarşı 108,8 faiz icra olunub, büdcəyə nəzərdə tutulandan 5 milyon 549 min 146 manat çox vəsait mədaxil edilib. 2021-ci ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin 74,5 faizi və ya 51 milyon 13 min 612 manatı Vergilər Nazirliyi tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 20,9 faizi və ya 14 milyon 274 min 822 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 3,2 faizi və ya 2 milyon 182 min 428 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 1,4 faizi və ya 994 min 384 manatı isə digər mənbələrdən daxil olub.

Vurğulanıb ki, hesabat dövründə dövlət büdcəsi gəlirlərinin tərkibində mərkəzləşdirilmiş büdcə gəlirləri 111 faiz, Avtomobil Yolları Məqsədli Büdcə Fonduna daxil olan vəsait istisna olmaqla, Naxçıvan şəhəri üzrə104,4 faiz, Şərur rayonu üzrə105,5 faiz, Babək rayonu üzrə 102,3 faiz, Ordubad rayonu üzrə 102,6 faiz, Culfa rayonu üzrə102,7 faiz, Şahbuz rayonu üzrə 103,3 faiz, Kəngərli rayonu üzrə103 faiz, Sədərək rayonu üzrə102,9 faiz icra olunub. 2021-ci ilin birinci yarım ilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 260 milyon 793 min 677 manat təyinata qarşı 221 milyon 454 min 234 manat və ya 84,9 faiz icra olunub.

Diqqətə çatdırılıb ki, cari ilin ilk yarım ilində muxtar respublika dövlət büdcəsinin icrasında sosialyönümlü xərclərdən əməyin ödənilməsi, dərman və ərzaq xərcləri, təqaüd və sosial müavinətlərə 142 milyon 940 min 910 manat sərf olunub ki, bu da büdcə xərclərinin 64,6 faizini təşkil edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Mirzə Cəlilov yarım ilin yekunlarına həsr olunmuş iclası açaraq bəhs olunan dövrdə keçirilən komandir hazırlığı üzrə məşğələlər barədə məlumat verib.*



Vurğulanıb ki, Silahlı Qüvvələrin cari çatışmazlıq komandalarının hərbi vəzifəlilər və hərbi-nəqliyyat vasitələrilə komplektləşdirilməsinə aid naryadlar icra edilib, hərbi hissə nümayəndələri ilə birlikdə komandalara təyin olunmuş ehtiyata olan zabit, gizir, çavuş və əsgərlərlə əvəz edilməsi həyata keçirilib.

Qeyd olunub ki, 2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramı çərçivəsində müddətli həqiqi hərbi xidmətini başa vuraraq Silahlı Qüvvələrdən ehtiyata tərxis olunan şəxslərin işlə təmin edilməsi nəzarətdə saxlanılıb. Hərbi xidmətdən tərxis olunan şəxslərin məşğulluğunun təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon (şəhər) idarə və şöbələrinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə hərbi xidmətdən tərxis olunmuş şəxslərlə Culfa şəhərində Culfa ilə Ordubad rayon şöbələri, Naxçıvan şəhərində Naxçıvan şəhər idarəsi ilə Şahbuz rayon şöbəsi ilə birgə, eyni zamanda Babək rayon idarəsində tədbirlər keçirilib.

Mirzə Cəlilov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə hamiliyə verilən Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tələbələri ilə təsdiq edilmiş plana uyğun olaraq hamilik işinin təşkilinə dair məşğələlər keçirilib.

Sonra məruzə ətrafında çıxışlar edilib.

**Xəbərlər şöbəsi**

## *"Azərbaycanın elm və mədəniyyət xadimləri"* seriyasının növbəti kitabı akademik İsmayıl Hacıyev haqqındadır

***Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası tərəfindən AMEA Naxçıvan Bölməsinin sədri, tarix elmləri doktoru, akademik İsmayıl Hacıyevin anadan olmasının 70 illiyinə həsr edilmiş biobiblioqrafik göstərici işıq üzü görüb. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasına daxil olan kitab AMEA Rəyasət Heyətinin qərarı ilə "Elm" nəşriyyatında çapdan çıxıb.***




Nəşrin elmi redaktoru tarix elmləri doktoru, professor Oktay Sultanov, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Tahirqızı, tərtibçiləri isə dosentləri Emin Şıxəliyev və Samir Quliyev, Türkan Vahidovadır.

Kitabın ilk səhifələrində Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin akademikə fəxri ad və mükafatların verilməsi, təltif edilməsi haqqında sərəncamlarının, AMEA Rəyasət Heyətinin İsmayıl Hacıyevin 70 illik yubileyi ilə bağlı qərarının mətnləri yer alıb.

Tanınmış tarixçi alimin 1975-2020-ci illərdə elmi və ictimai fəaliyyətinin əsas məlumatlarının toplandığı kitabda Azərbaycan, türk, rus, ingilis, ispan və italyan dillərində nəşr olunmuş elmi əsərləri, eləcə də dövri mətbuatda dərc edilmiş məqalələri əksini tapıb. Biblioqrafiyada daxil edilmiş materiallar müvafiq bölmələr üzrə və xronoloji ardıcıllıqla yerləşdirilib.

Əsərin birinci bölməsində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin görkəmli alimin həyat və fəaliyyətinə həsr olunmuş "Elmə xidmətin miqyası və missiyası", AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Vəli Baxşəliyevin "Elmi-pedaqoji fəaliyyətin mənalı illəri" başlıqlı oçerkləri ana dilimizlə yanaşı, rus və ingilis dillərində də oxuculara təqdim olunur.

Növbəti bölmələrdə alimin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri, akademik Mahmud Kərimov, İsa Həbibbəyli, Nailə Vəlixanlı və digərləri kimi görkəmli elm və mədəniyyət xadimlərinin akademik İsmayıl Hacıyev haqqında söylədikləri fikirlər verilib.

"Əsərlərinin biblioqrafiyası" başlıqlı bölmədə isə akademikin Azərbaycanşünaslıq elminin zənginləşməsinə xidmət edən kitab, monoqrafiya, publisistik məqalələri, müsahibələri, ön söz yazdığı, redaktoru, rəyçisi, elmi məsləhətçisi olduğu nəşrlər, eyni zamanda elmi məsləhətçisi, yaxud rəhbəri və opponenti olduğu dissertasiyalar, Azərbaycan Respublikası Milli Məclisinin iclas və sessiyalarında çıxışları yer alıb. Kitab və monoqrafiya adlarının toplandığı bölmədə hər bir əsərin bəhs etdiyi mövzu haqqında yığcam məlumat verilir.

Biobiblioqrafik göstəricidə, həmçinin soraq-axtarış aparatı tərtib edilib ki, bu da, öz növbəsində, nəşrdən istifadəni asanlaşdırmağa xidmət edir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Keyfiyyət standartlarının tətbiqi təşviq olunur

*İstehsal və xidmət sferasının bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılması, keyfiyyətli yerli məhsulların istehsalının təşviqi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və taxirəsalınmaz vəzifələrdəndir.*

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi iyunda, ümumilikdə, məhsul nümunələrinin 59 halda, o cümlədən qida məhsullarının 58 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvanda bu sahənin davamlı inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin və Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri ilə birlikdə Şərur rayonunun Günnüt kəndində, Şahbuz rayonunun Batabat yaylağında arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmışdır.

Hesabat ayında emal olunmuş kənd təsərrüfatı məhsullarının 22, meyvə-tərəvəz məhsullarının 12 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilməkdədir. 2021-ci ilin 22 iyun tarixində Kəngərli rayonunun Yurdçu kəndində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı 35 ailə təsərrüfatına maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 2, pivənin 2 və məhsul istehsalında istifadə olunan suyun 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Xarici bazarlara çıxış imkanlarının artırılması, xüsusilə diqqət mərkəzindədir. Bu məqsədlə məhsulların muxtar respublikadan kənara göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

İxracyönlü məhsul istehsal edən və keyfiyyət idarəetmə sistemi tətbiq edilməmiş müəssisələrin maarifləndirilməsi məqsədilə ISO beynəlxalq standartlarının tətbiqi və sənayedə brendləşmə, ixrac qabiliyyətli məhsulların əmtəə nişanlarının mühafizəsi və beynəlxalq sistem vasitəsilə qeydiyyatı istiqamətlərində ötən ay maarifləndirici seminar keçirilmiş, müvafiq standartın əsas prinsip və tələbləri izah edilmiş, əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsinin təmin olunması prosedurları barədə təsərrüfat subyektləri məlumatlandırılmışdır.

Muxtar respublika iqtisadiyyatının prioritet istiqamətlərindən biri də turizmin inkişafına yönəlmiş məqsədyönlü siyasətdir. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti ilə birgə iyun ayında "Turizm ictimai iaşə obyektlərində ofisiant işinin təşkili" mövzusunda seminar keçirilmiş, turizm sahəsində mövcud olan dövlət standartları haqqında məlumat verilmiş, "Turist-ekskursiya xidmətləri. Mehmanxana və mehmanxana tipli obyektlərdə ictimai iaşə müəssisələrinin təsnifatı" adlı dövlət standartının tələbləri geniş izah edilmişdir.

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Yarım ilin yekunlarına həsr olunmuş tədbirlər keçirilib

***Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasının müzakirəsi və 2021-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş iclaslar keçirilib.***

Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində keçirilən iclasda agentliyin direktoru Samiq Sadıxov çıxış edib. Bildirilib ki, icbari tibbi sığortanın tətbiqi zamanı Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilərək icbari tibbi sığortanın tətbiqində iştirak edən tibb müəssisələrinin sayı 18-ə yüksəlib.

Hesabat dövründə tibb müəssisələrində tibbi heyətə agentliyin əməkdaşları tərəfindən seminar-treninqlər keçirilib, tibb işçilərinin sualları yerində cavablandırılıb.

2021-ci ilin ilk 6 ayı ərzində vahid elektron idarəetmə sisteminin proqram təminatının təkmilləşdirilməsi prosesi davam etdirilib, ümumilikdə, sığortaolunanlara 43 min 653 göndəriş vərəqəsi verilib, 4 min 175 vətəndaş göndəriş almasına baxmayaraq, xəstəxanalara müraciət etməyib. Digər xəstəxanalarda lazımi tibbi xidmətlər üzrə icrası mümkün olmayan 11 min 563 təkrar göndərişli xəstələr də daxil olmaqla tibb müəssisələri tərəfindən 51 min 41 göndəriş vərəqəsi qəbul edilib. 872 tibbi xidmətə göndəriş vərəqəsi qanunvericiliyin tələblərinə uyğun olmadığı üçün icrasının qarşısı agentlik tərəfindən alınıb.

Yanvar-may ayları ərzində icbari tibbi sığorta çərçivəsində iştirak edən tibb müəssisələrinə 131 min 152 müraciət daxil olub, ümumilikdə, 471 min 341 adda tibbi xidmət göstərilib. 2021-ci ilin ilk 6 ayı ərzində qanunvericiliyin tələbinə uyğun olaraq sığortaolunanlardan sığorta haqları təyin edilmiş proqram daxilində müvafiq orqan tərəfindən toplanılıb və agentliyin hesabına ödənilməsi təmin edilib.

İcbari tibbi sığortanın səhiyyə sisteminin uğurlu modeli kimi tətbiqi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Sonda agentlik əməkdaşlarının çıxışları dinlənilib.

* * *



"Naxçıvan" Universitetindəki iclası giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, 2021-ci ilin birinci yarısında ali təhsil müəssisəsində bütün təhsil pillələri üzrə ölkənin başqa bölgələrindən olan 150, 100-ə yaxın əcnəbi tələbə olmaqla, 1339 tələbə təhsil alır. Tələbələrin tədrisi ilə yüksəkixtisaslı 95 nəfər professor-müəllim heyəti məşğul olur.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Ali Məclis Sədrinin: ***"Muxtar respublikada digər təhsil pillələri ilə yanaşı, ali təhsil üçün də hərtərəfli şərait yaradılıb. Ali təhsil müəssisələri mövcud imkanlardan səmərəli istifadə etməli, xarici tələbələrin sayı artırılmalı, tədris və elmi-metodik iş günün tələbləri səviyyəsində qurulmalı, startap hərəkatı və innovativ metodların təhsildə tətbiqi əsas istiqamət kimi götürülməlidir"*** fikrini xatırladan rektor bu sahədə qazanılan uğurların bundan sonra da universitet tərəfindən davam və inkişaf etdiriləcəyini vurğulayıb.

Rektor bildirib ki, dünyanın ali təhsil ocağı ilə tədris və elmi sahədə əlaqələri olan "Naxçıvan" Universitetində 2020-2021-ci tədris ilində 91 əcnəbi tələbə təhsil alıb. Bir çox beynəlxalq layihələrin tərəfdaşı olan universitetin bu sahədə əlaqələri daha da genişləndirmək məqsədilə gördüyü işlər haqqında danışıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən iclasda rektor Azad Novruzov çıxış edərək bildirib ki, hesabat dövründə ali təhsil ocağında 16 ixtisas üzrə bakalavr, 5 ixtisas üzrə isə magistr hazırlığı aparılıb. 2 dissertant fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə edib. 1 əməkdaş filologiya üzrə fəlsəfə doktoru elmi dərəcə diplomunu alıb.

Diqqətə çatdırılıb ki, 29 aprel 2021-ci il tarixdə tədrisin yeni metodlarla zənginləşdirilməsi və tələbələrin STEAM təlim metoduna yiyələnmələri üçün institutda yeni STEAM kabinəsi yaradılıb, innovasiya laboratoriyasının təşkilatçılığı ilə hesabat dövründə "Startap: innovativ gələcəyə doğru" mövzusunda maarifləndirici seminar keçirilib və tələbələrin yeni layihələrinin təqdimatı olub.

Qeyd edilib ki, hazırda 94 nəfər əməkdaş tərəfindən elmi-tədqiqat işləri aparılır. 2021-ci ilin I yarım ilində institut əməkdaşlarının, ümumilikdə, 253 əsəri, o cümlədən 35 kitab, kitabça və broşürü (monoqrafiya, dərs vəsaiti, metodik vəsait, fənn proqramı və digər), 130 elmi və elmi-metodik məqaləsi və 88 konfrans materialı (tezisi) çap olunub. Məqalələrdən 16-sı xaricdə, o cümlədən 14-ü impaktfaktorlu jurnallarda dərc edilib.

Ötən yarım ildə 2 respublika və regional konfrans, 18 adda müxtəlif səpkili institut səviyyəli elmi tədbirlər keçirilib, 200-ə qədər tələbə və magistrantın tədris ili ərzində yerinə yetirdiyi işlərdən 51-i həvəsləndirici mükafatlara layiq görülüb.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Tibb Kollecində keçirilən iclası giriş sözü ilə kollecin direktoru Sona Məmmədova açaraq bildirib ki, 2020-2021-ci tədris ilində kollecdə fəaliyyət göstərən fənn birləşmə komissiyaları, kabinə rəhbərləri, tyutor və qrup rəhbərləri tərtib olunmuş plan əsasında işləyib, kollecin ictimai həyatında, tədbirlərdə, dərnəklərdə tələbələrin fəal iştirakı təmin edilib, təlim-tərbiyə, dərsə davamiyyət, təcrübə dərslərinin vəziyyəti, semestr və dövlət imtahanlarına hazırlığın təşkili və sair məsələlər müzakirə olunub, çatışmazlıqların aradan qaldırılması məqsədilə lazımi tədbirlər görülüb.

Qeyd edilib ki, son iyirmi ildə kollecdə orta ixtisaslı kadrların hazırlanması artıq 8 ixtisas üzrə aparılır. Kollecdə 39 qrup 8 ixtisas üzrə tələbələrin ümumi sayı 716 nəfərə çatıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi əsasında Naxçıvan Tibb Kollecində müvafiq ixtisaslar üzrə, ümumilikdə, 77 nəfər müdavim təkmilləşdirmə kursunda iştirak edib, müvafiq sertifikatlarla təmin olunub.

2020-2021-ci tədris ilində 13 qrup üzrə 253 tələbə müvafiq ixtisaslar üzrə dövlət imtahanlarında iştirak edib, 252 nəfər diplom almaq hüququ qazanıb. 51 tələbə fərqlənmə diplomuna layiq görülüb.

Sonra çıxışlar olub.

***Xəbərlər şöbəsi***

## Televiziya və radioların peşəkarlıq fəaliyyətinə nəzarət edilir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası iyun ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləyərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin icrasını diqqətdə saxlayıb.

Naxçıvan Televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə, Dövlət proqramlarının icrası ilə bağlı görülən işlərə həsr olunmuş 12 telematerial hazırlanıb. Televiziyanın öz teleməhsulları, həmçinin sənədli filmlər və Dublyaj redaksiyasının materiallarının həcmi efirin 72 faizini təşkil edib. Bu dövrdə 98 veriliş efirə təqdim olunub.

İyunun ayının 2-də Naxçıvan Televiziya və Radiosunda şuranın iştirakı ilə yaradıcılıq müzakirəsi aparılıb, monitorinqlər zamanı müşahidə olunan bəzi nöqsanlar diqqətə çatdırılıb. Ötən ay Naxçıvan radiosunun da müxtəlif istiqamətlər üzrə monitorinqi aparılıb. Bu ay ərzində radio 471 saat efirdə olub. Ümumi efirin 42,3 faizi radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audioçarxlar, 57,7 faizi isə konsert proqramları və digər hazır materiallardan ibarət olub. Ay ərzində 153 veriliş və canlı proqram, 341 konsert proqramı təqdim edilib.

Şura "Kanal 35" Televiziyasının iyun ayındakı yayım siyasətini nəzarətdə saxlayıb, təhsil profilli verilişlərin monitorinqi aparılıb. Məktəblilərin bilik və bacarıqlarının artırılması məqsədilə bu ay "Dərs vaxtı" teledərslərin 58 sayı, "Peşə təhsili" ilə bağlı materialların 4 sayı efirə təqdim edilib. Bu isə ümumi efirin 39,8 faizini təşkil edib.

"Naxçıvanın səsi" radiosu 480 saat efirdə olub və efir müddətinin 87 saatını canlı yayım proqramları təşkil edib.

Şura iyun ayında da Naxçıvan Dövlət Universitet Televiziyasının yayım fəaliyyətinə nəzarəti davam etdirib, televiziyanın monitorinqini aparıb.

***Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası***

*Müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsil səviyyəsi ilə sıx bağlıdır. Təhsilə böyük diqqət göstərən ümummilli lider Heydər Əliyev deyirdi: **“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyat fəaliyyətinin mühüm sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”.** Bu gün tam əminliklə deyə bilərik ki, ulu öndərin ənənələrinə sadiq qalaraq muxtar respublikamızda hər bir sahədə olduğu kimi, təhsildə də uğurlu inkişafı təmin etmək üçün əsaslı şərait yaradılıb. Göstərilən diqqət sayəsində ali təhsil ocaqlarımız dünyanın qabaqcıl universitetləri ilə müqayisə ediləcək səviyyəyə çatıb. Tədrisin keyfiyyətinin yüksəldilməsi, universitetlərdə yaradılan müasirtipli şərait nəzəri biliklərlə yanaşı, təcrübi biliklərin də tətbiqinə geniş imkanlar yaradır. Dövlət qayğısının nəticəsi kimi, ali təhsil ocaqlarımızda qurulan maddi-texniki baza tələbələrin gələcəkdə peşəkar kadr kimi formalaşmağında müstəsna rol oynayır.*

## Söz tələbə-jurnalistlərindir və ya bizi izləməyi unutmayın!

Müasir dövrü jurnalistikasız təsəvvür etmək qeyri-mümkündür. Cəmiyyətin ən aktual sahəsi sayılan jurnalistika insanlarda ictimai rəy formalaşdırmaqla qalmır, onları maarifləndirir, məlumatlandırır. Bu yolda çətin, bir o qədər də şərəfli missiya jurnalistlərlə yanaşı, jurnalist kadrları hazırlayan ali təhsil ocaqlarının və bu yolda xidmət göstərən müəllimlərin üzərinə düşür.

Qeyd edək ki, son dövrlər Naxçıvan Dövlət Universitetində jurnalistika



sahəsi çox sürətlə və keyfiyyətli şəkildə inkişaf etməkdədir. Bu da onunla bağlıdır ki, informasiya və multimedia dövrü sayılan XXI əsr öz gəlişi ilə universitetdə mətbuatın da inkişafını sürətləndirərək onu operativ və dinamik bir sahəyə çevirdi. 2001-ci ildən etibarən universitetdə Jurnalistika ixtisası üzrə kadr hazırlığına başlanıldı. 2002-ci ildən fəaliyyət göstərən Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası bu sahədə görülən işlərin sistemli və mütəşəkkil aparılmasını şərtləndirir.

Universitetdə fəaliyyət göstərən Media Mərkəzi tələbə-jurnalistlərə nəzəriyyədə öyrəndikləri biliklərin praktik cəhətdən tətbiqinə şərait yaradır. Təhsilin ən uğurlu nəticəsi də məhz nəzəriyyə və təcrübənin birgə fəaliyyətindən yaranır. Media Mərkəzində yaradılan studiya, rejissor və montaj otaqları, redaksiya və media kabinələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Avropa standartlarına cavab verən ən son texniki avadanlıqlarla təchiz olunub. Tələbələrin bu mərkəzlə davamlı əlaqədə olması qazanılan əyani biliklərin, nəzəriyyənin təcrübəyə çevrilməsi ilə yanaşı, peşəkar vərdişlərə hələ tələbəlik illərindən sahib olmağa da imkan yaradır. Bu da gələcəkdə KİV sahəsində potensial kadrların geniş bazasının formalaşması deməkdir. Burada televiziya jurnalisti üçün bütün zəruri yaradıcılıq prosesləri ardıcıl şəkildə öyrədilir. İstər verilişə hazırlıq, operatorla, kamera ilə işləmə, televiziya jurnalisti üçün mühüm tələb olan görüntü və ya kadr duyumu, tamaşaçı gözü ilə özünə kənardan baxma bacarığı, həmsöhbətlə müsahibə və ən əsası zamanın tələ-



binə uyğun mövzuların düzgün seçilməsi də bir şərt kimi qarşıya qoyulur. Bundan başqa, aparıcı xüsusiyyətlərindən tutmuş, montaja və radio sahəsinə qədər olan bütün vərdişlər də bu siyahıda yer tutur.

Ali təhsil müəssisəsi bu istiqamətdə bir sıra yeniliklərə və ilklərə imza atıb. 2006-cı il aprelin 27-də Azərbaycan təhsil sistemi və regional jurnalistika tarixində ilk dəfə Naxçıvan Dövlət Universitetində televiziyanın fəaliyyətə başlaması böyük rezonans doğurdu. Amerika, İsveçrə və Türkiyə təcrübəsindən istifadə olunaraq yaradılan televiziya ali təhsil ocağının 108 hektarlıq ərazisində yerləşən tədris korpuslarının böyük auditoriyalarında qurulmuş televizorlar vasitəsilə bütün universitet ərazisində yayımlanır. Qeyd edək ki, elə həmin il oktyabrın 11-də televiziyanın Naxçıvan Muxtar Respublikası ərazisində yayımlanması üçün müvafiq tezlik də ayrılmışdı. 2006-cı il oktyabrın 20-də isə televiziya dövlət qeydiyyatına alındı. Bu televiziya kanalına 10 kilometr olmaqla izlənmə imkanı yaratdı.



Burada yaradılan yeni infrastruktur və virtual studiya distant tədrisin tətbiqinə, videodərslərin hazırlanmasına geniş imkanlar açıb. Tələbə-jurnalistlərin hazırladıqları verilişlər, süjetlər HD formatda yayımlanır. Bununla yanaşı, tələbələr televiziyada müasir informasiya-kommunikasiya texnologiyalarının, internet jurnalistikasının geniş imkanlarından istifadə edərək media ilə daim virtual əlaqələr qurur.

Universitetdə tələbələr üçün fundamental təcrübi baza, əsl yaradıcılıq laboratoriyası rolu oynayan Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi, “Qeyrət” nəşriyyatı və “Nuhçıxan” radiosu fəaliyyət göstərir. Hər ay müntəzəm olaraq “Şərq qapısı”, “Yeni fikir” qəzetlərində, “Nuhçıxan” İnformasiya Agentliyində və bir sıra rayon, mətbuat orqanlarında gələcək jurnalistlərin yazılarının dərc edilməsi onların hələ tələbəlikdən imzalarının tanınmasına şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” imzaladığı Sərəncam yaradıcılığa ilkin qədəm qoyan tələbələrə müxtəlif media orqanlarında öz bacarıqlarını sınamağa imkan yaradır. Bunun nəticəsidir ki, Jurnalistika ixtisasında təhsil alan bir çox tələbə müxtəlif media qurumlarında işlə təmin olunub və peşəkar həmkarlarla çiyin-çiyinə fəaliyyət göstərir.

Onu da deyək ki, Media Mərkəzinin fəaliyyətində iştirak edən istedadlı və bacarıqlı tələbələr universitet rəhbərliyi tərəfindən mükafatlara layiq görülür.

Ali Məclis Sədrinin qayğı və təşəbbüsü sayəsində Naxçıvan Dövlət Universitetinin Televiziyası bu ilin mart ayından həftənin bazar ertəsi, çərşənbə və cümə günləri saat $11^{00}$-dan $15^{00}$-a qədər 4 saatlıq efir vaxtilə “Kanal 35” Televiziyasının efir tezliyindən istifadə edərək muxtar respublika ərazisinə yayımlanır. Bu, sözün əsl mənasında, Universitet televiziyası üçün bir inqilabdır. İlk dəfə olaraq ölkədə həyata keçirilən bu layihə tələbə-jurnalistlərdə məsuliyyəti artırmaqla yanaşı, həm də onların universitetdə qazandıqları biliklərin, təhsil səviyyəsinin əyani sübutudur.

Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Aparılan islahatlar kadr hazırlığına müasir yanaşmanı, eyni zamanda vətəndaşın müasir cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Bu gün muxtar respublikamızda təhsilin və kütləvi informasiya vasitələrinin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, hər iki sahədə güclü infrastrukturun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən Dövlət proqramlarının qəbul edilməsi qazanılan uğurlarda başlıca amillərdir.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Maarifləndirici tədbir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən Dövlət Baytarlıq Xidmətində “Naxçıvan Muxtar Respublika Dövlət Baytarlıq Xidmətində fövqəladə hallara hazırlıq işi diqqətdə saxlanılır” mövzusunda maarifləndirici tədbir keçirilib.*

Tədbirin məqsədi xidmətin işçilərinə təhlükəsizlik tədbirləri barədə məlumat vermək, fövqəladə hallara hazırlıqla bağlı müəyyənləşdirilmiş qaydalara əməl edilməsi üzrə işçilərin məsuliyyətini artırmaq, yanğın təhlükəsizliyi qaydaları barədə məlumat verməkdən ibarət olub.

Tədbiri giriş sözü ilə açan nazirlik aparatının Mülki müdafiə işinin təşkili şöbəsinin baş məsləhətçiləri – dövlət qulluqçusu Əbülfəz Qafarov və Afaq Alməmmədova yay mövsümündə təhlükəsizlik qaydaları, yanğına səbəb olan amillər haqqında iştirakçılara məlumat veriblər.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkaları keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə növbəti əmək yarmarkası Culfa rayonunda keçirilib. Yarmarkada işaxtaranlara 7-si dövlət və 23-ü özəl sektor olmaqla, ümumilikdə, 30 müəssisədən 117 boş iş yeri təqdim edilib. Nəticədə, 26 nəfərə sözügedən vakansiyalar üzrə müvafiq işlərə göndəriş verilib, 6 nəfərin peşə hazırlığı kurslarına, 16 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Ordubad rayonunda keçirilən əmək yarmarkasında isə işaxtaranlara 18-i dövlət və 4-ü özəl sektordan olmaqla, ümumilikdə, 22 müəssisədən 188 boş iş yeri təqdim edilib. Qeyd edək ki, yekunda 29 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 14 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Həkim məsləhəti*

## Günvurma, istivurma – profilaktikası və ilk yardım

***Yay fəslinin insan səhhəti üçün törətdiyi fəsadlardan ən çox müşahidə olunanı günvurma və istivurmadır. Son vaxtlar respublikamızda havaların çox isti keçməsi bu problemin aktuallığını daha da artırır. Bu isə, öz növbəsində, yüksək hərarətin törədə biləcəyi fəsadların qarşısını almaq, baş verdikdə isə lazımi tədbirləri görmək üçün əhali arasında müxtəlif söhbətlər aparılması zərurətini yaradır.***



Günvurma və istivurma terminləri ilk baxışda eyni təəssürat yaratsa da, həm yaranma səbəbinə, mexanizminə, həm də profilaktika və tələb olunan həkiməqədərki yardım elementlərinə görə bir-birindən tamamilə fərqlənirlər.

Belə ki, istivurma bütün bədən səthinə yüksək hərarətin (isti, bürkü havanın) təsirindən yaranırsa, günvurma ancaq Günəş şüalarının bilavasitə baş nahiyəsinə təsirindən meydana çıxır. Günvurma ancaq açıq havada, günəş şüaları altında uzun müddət başıaçıq qaldıqda yaranır və yalnız baş beyinin xəstələnməsi əlamətləri – kəskin başağrısı, başın şişməsi, gözlərin “qabarması” hissi, toxunduqda üz-baş dərisində gizilti, keylik, mədə bulanması və sair əlamətlərlə müşahidə olunur. Ağır hallarda huşun itməsi, burundan qanaxma, sifətdə nöqtəvi qansızmalar, hətta beyinə qansızma (insult) və sair fəsadlaşma əlamətləri yarana bilər. İstivurma isə isti havada, yaxud qızmar Günəş altında uzun müddət həyətdə, çöldə işləmək, çimərlikdə uzanmaq, yatmaq, uzaq yol getməklə yanaşı, ümumiyyətlə, Günəşin düşmədiyi qapalı, bürkü, havası dəyişilməyən otaqda keçirilən müəyyən mərasimlər, kollektiv tədbirlər, ocaq, təndir başında uzun müddət oturmaq və başqa hallarda da yarana bilər. Xatırlatmağa dəyər ki, yorğunluq, yuxusuzluq, sərxoşluq, qocalıq, qanazlığı və sair hallar istivurmaya kömək edən amillərdir.

Günvurmadan fərqli olaraq istivurma hərarətin bütün bədənə təsirindən yarandığı üçün ürək-damar və tənəffüs sistemi fəaliyyətinin pozulması əlamətləri meydana çıxır. Bu əlamətlərə bütün bədənin, sanki keyiməsi hissi, ürəkdöyünmə, nəbzin tezləşməsi, selikli qişaların quruması, mədə bulanması, tənəffüsün tezləşməsi və səthiliyi, tərləmə, süstləşmə, şüurun tutqunlaşması, lakin itirilməməsi aiddir. Hər iki halda beyin qan dövranının, ürək-damar və tənəffüs kimi həyativacib funksiyaların pozulması üzündən həyat üçün təhlükə törənə bilər.

Təbabətin əsas qanununa görə, hər hansı xəstəliyin qarşısını almaq, onu müalicə etməkdən olduqca asandır. Odur ki, Günəş şüalanmasının yüksək vaxtlarında, adətən, gündüz saat $10^{00}$-$17^{00}$ arasında açıq havada qalmaq zərurəti yaranarsa, özü ilə çətir götürmək, yüngül, şüaları əks etdirən, istini buxarlandıran ağ rəngli, nazik pambıq parçadan paltar geymək, baş örtüklərindən (yaylıq, şlyapa və sair) istifadə etmək, heç olmazsa, cib dəsmalı, yaxud istənilən parçanı tez-tez isladaraq başa sarımaq, uzaq yola, çöl işlərinə çıxarkən müxtəlif ehtiyat mayelər götürmək, tez-tez həmin içkilərdən qurtum-qurtum içmək, üzü, boyunu islatmaq, imkan daxilində, arabir kölgəlikdə dincəlmək məsləhətdir.

Kütləvi tədbirləri qapalı otaqlarda keçirmək zərurəti yarandıqda, heç olmazsa, qapı-pəncərənin açıq saxlanması, sərinləşdirici qurğulardan (sərinkeş, kondisioner) istifadə kömək edə bilər.

Əgər sadalanan tədbirlər kömək etməmişsə, yaxud laqeydlik üzündən fəsadlaşma əlamətləri yaranmışsa, hər iki halda zərərçəkənlər təcili həmin mühitdən uzaqlaşdırılaraq kölgə yerə keçirilməli, sıxıcı vasitələr açılmalı, baş nisbətən hündürdə olmaqla uzaldılmalıdır. Qusmaya meyillilik olarsa, xəstənin başı yana əyilməlidir ki, möhtəviyyat ağızdan asanlıqla boşala bilsin, boğulma ehtimalı aradan qalxsın. İstivurma qapalı mühitdə baş vermişsə, qapı-pəncərələr açılaraq havalanmaya şərait yaradılmalı, vəziyyət imkan verirsə, zərərçəkənin təmiz havaya çıxardılması vacibdir.

Günvurmadırsa, xəstənin başına, üz və boynuna soyuq su çiləmək, isladılmış dəsmalla silmək, buz qovuqcuqları – buz və ya soyuq su doldurulmuş sellofan torbalar, şampun qabları və sair qoymaq, az-az sərin su içirtmək, huşunu itirmişsə, naşatır spirti iylətmək olar.

İstivurmada isə xəstəni sərin su ilə isladılmış parçaya, adyala bürmələmək, soyuq su çiləmək, boyun, sinə, qoltuqaltı və iri səthi damarların üzərinə buz qovuqları döşəmək, sərin su və şirələr içirtmək məsləhətdir. Ehtiyac yaranarsa, ürək və tənəffüs fəaliyyətini yaxşılaşdıran dərmanlar işlətmək və təcili yardım çağırmaq lazımdır.

**Adil MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, dosent***

### İtmişdir

Babək rayonu, Zeynəddin kənd sakini Məmmədov Alı İsa oğlunun adına olan JN-348 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Məmmədov Malikəjdər İsa oğlunun adına olan JN-350 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Məmmədov Məmməd İsa oğlunun adına olan JN-351 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Məmmədov Hümbət İsa oğlunun adına olan JN-352 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 575